Ədəbiyyat qəzeti

28 noyabr 2020-ci il 13



Vidadi BABANLI

# Ay dığa!

*Nikol Paşinyana*

*Xeyli əvvəl kef-damağın çağ idi,*
*Gəlib düşdün, bu nə gündü, ay dığa?!*
*Üz döndərdi qul-beçələr də səndən,*
*Çilçırağın tamam söndü, ay dığa!*

*Şuşamızda qəsdən şənlik edirdin,*
*Bizə acıq verib "yallı" gedirdin.*
*Dumanlıydı başın, yox idi dərdin,*
*Haqq dilləndi, bəxtin çöndü, ay dığa!*

*Zaman ötür, qisas qalmır dərində,*
*Zəfər çalır xoş günlərin birində,*
*Fas-farağat oturmadın yerində,*
*Sənə bəla göydən endi, ay dığa!*

*Ədalətə hər an ümid bəslədik,*
*Xalqımızı dözümlüyə səslədik,*
*Qələbəni hövsələylə gözlədik,*
*İgid türkün səbri gendi, ay dığa!*

*Müdrik Babanlının eşit sözünü,*
*O görür hər şeyin əyri-düzünü,*
*Çox yazıq bir hala saldın özünü,*
*Anla qələtini indi, ay dığa!*

*14.11.2020*